UOT 372.894

***Nahidə Qalib qızı Əsədova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# TARİXDƏN DƏRSDƏNKƏNAR İŞLƏRİN TƏŞKİLİ PROBLEMİNİN MAHİYYƏTİ

***Нахида Галиб гызы Асадова***
*Азербайджанский Государственный Педагогический Университет*

# СУЩНОСТЬ ПРОБЛЕМЫ ОРГАНИЗАЦИИ ВНЕУРОЧНОЙ РАБОТЫ ПО ИСТОРИИ

***Nahida Galib Asadova***
*Azerbaijan State Pedagogical University*

# THE ESSENCE OF THE PROBLEM OF ORGANIZING EXTRACURRICULAR ACTIVITIES IN HISTORY

**Xülasə.** Məqalədə problemin aktuallığı əsaslandırılıb. Tarixdən dərsdənkənar işlərin mahiyyətinə, məzmununa aydınlıq gətirilib. Dərsdənkənar işlərin didaktik və tərbiyəvi imkanlarına münasibət bildirilib. Məqalədə sinifdənxaric, dərsdənkənar və məktəbdənkənar tədbirlərin oxşar və fərqli cəhətləri şərh edilib. Məqalədə tarixdən dərsdənkənar işlərin səmərəli təşkili yolları tədqiq edilmiş və onların təhsilalanların təlim-tərbiyəsindəki rolu işıqlandırılmışdır.

***Açar sözlər:*** *tarix, dərsdənkənar işlər, problem, təşkili, mahiyyət, forma və yolları, məktəbdənkənar işlər, təlim-tərbiyə*

**Резюме.** В статье обосновывается актуальность проблемы. Уточнены сущность и содержание внеурочных работ по истории. Выражено отношение к дидактическим и воспитательным возможностям внеурочных работ. В статье рассматриваются сходства и различия между внеклассными, внеурочными и внешкольными мероприятиями. В статье исследуются способы эффективной организации внеучебных работ по истории и освещается их роль в воспитании учащихся.

***Ключевые слова:*** *история, внеурочные работы, проблема, организация, сущность, форма и пути, внешкольные работы, обучение и воспитание*

**Summary.** The article substantiates the urgency of the problem. The essence and content of extracurricular activities in history have been clarified. Attitudes were expressed to the didactic and educational opportunities of extracurricular activities. The article comments on the similarities and differences between out-of-class, extracurricular and out-of-school activities. The article explores the ways of effective organization of extracurricular activities in history and highlights their role in the education of students.

***Keywords:*** *history, extracurricular activities, problem, organization, essence, forms and ways, out-of-school activities, education*

Azərbaycanda bütün sahələrdə olduğu kimi təhsil sahəsində də məqsəd müəyyən nailiyyətlər əldə etmək və onu inkişaf etdirərək, dünya təhsil sisteminə uyğunlaşmaqla təhsilalanları cəmiyyət üçün hazırlamaqdır. Bu inkişafı reallaşdırmaq üçün bir sıra sənədlər, təhsil qanunu hazırlanmışdır. Keyfiyyətli təhsil üçün dərsdənkənar işin təşkili əsas amillərdən biridir. Məktəblərdə Azərbaycan tarixi üzrə dərsdənkənar işlərin təşkil edilməsinin təlim-tərbiyəvi əhəmiyyəti çox böyükdür. Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün şagirdləri məktəbdə, dərsdənkənar işlərdə doğru məqsədə uyğun tərbiyələndirmək lazımdır. Kitablarda, dərsliklərdə tarixi şəxsiyyətlər haqqında məlumatlar vasitəsilə təhsilalanları fəaliyyətə cəlb etmək, təlimdə cəmiyyətin inkişafına uyğunlaşmış şəkildə, milli-mənəvi dəyərlərimizə əsaslanaraq onları öyrətmək vacibdir.

Dərsdənkənar işi təşkil etmək, tətbiq edərkən prosesləri düzgün bilmək vacibdir. Dərsdənkənar və məktəbdənkənar işlərin başlıca istiqaməti əxlaq tərbiyəsi, ideya-siyasi tərbiyə, estetik tərbiyə, iqtisadi tərbiyə və fiziki tərbiyədir. İş zamanı isə hər bir istiqamətin cəhətlərini nəzərə almaq vacibdir. Tarixə dair dərsdənkənar işlər peşəkarlıqla təşkil edildikdə mühüm nəticələr əldə edilir, təhsilalanların tarixi bilikləri mənimsəmə səviyyəsi yüksəlir. Elmi dünyagörüşü, mənəvi-əxlaqi keyfiyyətləri inkişaf edir, vətənpərvərlik, Vətəninə və xalqına dərin məhəbbət, əmək adamlarına, əməyə hörmət və s. kimi hisslər formalaşır. Dərsdənkənar işlərin təşkil edilməsi nəticəsində şagirdlərin əldə etdikləri biliklər daha çox dərinləşib möhkəmlənir, onlar Azərbaycan tarixinin xüsusiyyətlərini dərindən mənimsəmiş olurlar. Tarix üzrə dərsdənkənar işlərinin həyata keçirilməsində əsas məqsəd şagirdləri yüksək xarakterə malik şəxsiyyət və nümunəvi vətəndaş kimi formalaşdırmaqdır.

Tarix üzrə dərsdənkənar iş problemini prof. M.M. Əmirov tədqiqat obyekti kimi seçsə də o, bu məsələlərə yetərincə aydınlıq gətirməmişdir. M.M. Əmirov "Tarix üzrə dərsdənkənar iş (metodik vəsait)"(2, s. 6-7) adlı əsərində dərsdənkənar işlərə ümumi şəkildə münasibət bildirmişdir. Belə ki, problemin nəzəri və praktik məsələlərini işıqlandırmışdır.

Digər tədqiqatçı İ. Əsgərova "Tarixdən sinifdənxaric məşğələlərdə şagirdlərin tədqiqatçılıq fəaliyyətinin inkişaf etdirilməsi" (3, 2011, № 3, s. 18-19) adlı məqaləsində sinifdənxaric işlərin yalnız bir funksiyası şagirdlərin yaradıcılığı işıqlandırılıb.

Tarixdən dərsdənkənar iş probleminə xarici ölkə alimləri də müraciət ediblər. Bunlardan С.А. Ежова, М.М. Лебедева, А.В. Дружкова və başqaları ilə birlikdə təqdim etdikləri vəsaitdə (1, s. 252) dərsdənkənar işlərin vəzifələrini, əsas xüsusiyyətlərini, tarix dərsləri ilə əlaqəsini, problemin metodik ədəbiyyatda qoyuluşunu, dərsdənkənar işlərin məzmununu və əsas formalarını işıqlandırmışdılar.

М..М. Терехов "Хрестоматия внеклассной работе"(4, s. 9-11) adlı metodik vəsaitində ancaq tarix gecələrinin müxtəlif formaları əks etdirilib. Təqdim olunan tarix gecələrinin maraqlı, diqqətçəkən formaları zəngin məzmuna malikdir. Əlbəttə, adlarını çəkdiyimiz və çəkmədiyimiz ədəbiyyatların analitik təhlili tarixdən dərsdənkənar işlərin təşkilinin mahiyyətini müəyyənləşdirmək imkanı verib.

Tarixdən dərsdənkənar tədbirlər, təlim və təhsil-tərbiyə vəzifələrini yerinə yetirməklə şəxsiyyətin məqsədyönlü formalaşması prosesini həyata keçirir. Bu isə müəllimlə şagirdin, yəni tərbiyə edənlərin tərbiyə edilənlərə interaktiv təsiridir. Ümumi olaraq qarşıya qoyulmuş məqsədə çatmaq üçün müəllim və şagirdlər qarşılıqlı əlaqədə olmalıdır. Tarixdən dərsdənkənar işin mühüm xüsusiyyəti şagirdlərin sərbəst olmasıdır, məcburi deyil, dərsdənkənar vaxtda könüllülük prinsipinə əsaslanan şəkildə keçirilir. Müəllim dərsdənkənar işi qurarkən elə şərait yaratmalıdır ki, şagirdlər özlərini müstəqil və məsuliyyətli hiss etsinlər. Bu tədbirlər aparılan zaman yalnız bir sinfin deyil, digər sinfin şagirdləri də iştirak edə bilər. Mövzudan asılı olaraq şagirdlərin yaş xüsusiyyətləri də nəzərə alınır, dərsdənkənar işi təşkil edən müəllim şagirdlərin bilik səviyyəsini, onların arzu və maraqlarını nəzərə almalıdır. Belə olmadıqda müxtəlif sinif şagirdlərini birləşdirmək məqsədəuyğun deyil. Dərsdənkənar iş eyni sinifdəki tarix fənni üzrə proqramı ilə əlaqəli olmayan mövzuya həsr edilibsə, onda müxtəlif sinif şagirdlərini birləşdirmək olar. Mövzu olaraq "Valideynlərimiz qarşısında vəzifələrimiz", " Paytaxt Bakı" və s. götürmək olar.

Dərsdən fərqli olaraq dərsdənkənar işdə şagird onu maraqlandıran mövzunu seçə bilər. Dərs prosesindən başqa digər məqamlardan biri dərsdənxaric işi təşkil etmək, onun tətbiqini səmərəli şəkildə həyata keçirmək lazımdır.

Dərsdənkənar işlərin kütləvi formalarından biri ekskursiyadır. Ekskursiyalar şagirdlərin dərsdə və sinifdənkənar işlərdə aldıqları bilikləri konkretləşdirir, elmi dünyagörüşünün formalaşmasına, əmək və vətənpərvərlik ruhunda tərbiyə edilməsinə mühüm təsir göstərir. Tarixi şəraitlə, müasir vəziyyətlə, maddi-mədəniyyət abidələri və s. ilə tanış edir. Ekskursiyalar öz tarixi keçmişini, tarixi abidələri şagirdlərə öyrətməyə kömək edir. Ekskursiyalar şagirdlərin dərsdə öyrəndiklərini əyani olaraq görmələrinə şərait yaradır. Ekskursiyanın keçirilməsi 3 hissədən ibarətdir. 1. Giriş müsahibəsi. 2. Ekskursiyanın keçirilməsi. 3. Yekun müsahibəsi.

Ekskursiyaya başlamazdan öncə giriş müsahibəsi təşkil edilir və mövzu üzrə nəzəri hazır-

lıq, iştirakçılara tapşırıqlar verilməsi və s. öz əksini tapır. Ekskursiyanın keçirilməsi zamanı orada tədqiqat elementləri olmalıdır. İştirakçılar tarixi abidələr və ya muzeylərdə olan eksponatları öyrənir, verilmiş izahatları dinləyirlər. Ekskursiya rəhbəri əvvəlcə davamiyyəti yoxlamalıdır. Tarixi abidələr, muzeylər ilə yalnız ekskursiya zamanı deyil, ekskursiyadan sonra onu yekunlaşdırmaq üçün konfrans təşkil edilməlidir. Bakı şəhəri tarixi abidələrin, muzeylərin çoxluğuna görə digər şəhərlərimizdən fərqlənir. Bakı şəhərində Qız qalası, Şirvanşahlar sarayı, Azərbaycan tarixi muzeyi və s. abidələrə ekskursiya təşkil etmək olar.

Dərsdənkənar işin planı müəllim tərəfindən illik hazırlanır. Planın konkret məqsədi olmalı, mövzunu dərindən öyrənmək zərurəti baxımından əlaqəli qurulmalıdır. Planda dərsdənkənar işin müxtəlif formaları da nəzərə alınmalıdır. Buna misal olaraq, tarix gecələri, tarix dərnəkləri, sinifdənkənar oxu, ekskursiyalar və s. tədbirləri göstərə bilərik. Həmçinin şəhər və ya kənd maarif məkanında, rayonlarda tarixi görməli yerlərə ekskursiyalarda, tarixi hadisələrin iştirakçıları ilə görüşlərdə, yubiley sərgiləri, teatr tamaşaları, ailə ənənələri, internet resursları və s. dərsdənkənar fəaliyyətin mühüm amilləridir.

Tarixi şəxsiyyətlərlə bağlı təşkil edilən sinifdənxaric işin həyata keçirilməsi zamanı cəlbedicilik, ideyanın ortaya qoyulması, maraqlı və baxımlı olması, tədbirin daim monoton yox, əyləncəli olmasına da şərait yaradılmalıdır. Təşkil edilmiş tədbirlərdə rollu oyunlar, səhnələşdirilmiş tarixi hadisələr, sual, əl işləri və s. dərsdənkənar işlərin daha da maraqlı, əyləncəli olmasına təsir edir. Tarixi şəxsiyyətlər haqqında dərsdənkənar işlərin aparılması da təhsilin bir forması hesab edilir, təhsilalanların yüksək səviyyədə inkişafına, tərbiyə edilməsinə yönəlmişdir. Tədbirlər nəticəsində şagirdlərə qiymət yazılmır, bu onların biliyinin, təfəkkürünün inkişafına istiqamətlənib.

Məktəbdənkənar işlərdən biri də şagirdlərin teatrlara, kinolara kollektiv şəkildə aparılmasıdır ki, təbii ki, bu zaman onların yaşları nəzərə alınmalı, uşaqların maraq dairələrinə uyğun teatr və kino klublar seçilməlidir. Məktəblərdə keçirilən tarix gecələri dərsdənkənar işin ən çox yayılmış formalarından biridir. Tarixə dair gecələr mühüm tarixi hadisələr, yubileylər, tarixi şəxsiyyətlərin həyatı və s. ilə bağlı təşkil edilir. Tarix gecələrində çox zaman kiçik məruzə və çıxışlar olur. Hətta bəzən mövzudan asılı olaraq tarixi hadisələr səhnələşdirilir. Bu gecələr üçün şagirdlər divar qəzetləri, fotomontajlar, bülletenlər və s. hazırlayırlar. Tarix gecələri ən çox tarix müəllimi ilə başqa fənn müəllimlərinin birgə iştirakı ilə keçirilir. Tarix gecələrinin müxtəlif iş formaları var: deklamasiya, məruzə, mahnı, bədii oxu, səhnələşdirilmiş hekayə və nağıllar və s. aiddir. Müvəffəqiyyətlə təşkil edilmiş tarix gecələri şagirdlərə güclü təsir edir, onların tərbiyəsində qüvvətli vasitə olur. Bu məqsəddən çıxış edərək tarix müəllimi il ərzində 1-2 dəfə tarix gecələri təşkil edə bilər.

Dərsdənkənar işlərin formalarından biri dahi şəxsiyyətlərimizə dair konfransların keçirilməsi, onlar haqqında divar qəzeti, məqalənin hazırlanması və s. məsələlərdir. Başqa forma kimi məktəblərdə müxtəlif klublar, dərnəklər təşkil edilir. Tarix konfransları da müxtəlif mövzularda keçirilə bilər. Konfranslar da tarixi hadisələrə, yubiley günlərinə, tarixi şəxsiyyətlərin tərcümeyi-hallarına həsr olunur. Tarixi konfranslar da tarix gecələri qismində təşkil edilir, amma tarixə dair konfransların özünəməxsus xüsusiyyətləri var. Konfranslarda rəqsə, mahnıya, musiqi ifasına yer verilmir. Konfranslar daha çox tarixi romanların, povestlərin, elmi əsərlərin müzakirəsinə həsr edilir. Tarix konfransları tarix dərnəyinin yekunu kimi keçirilə bilər.

Sinifdənxaric işin təşkilində həyata keçirilən işlərdən biri də tarixi şəxsiyyətlər mövzusunda söhbətlərin hazırlanmasıdır. Bu istiqamətlərdə tədbirlərin keçirilməsində məqsəd ondan ibarətdir ki, şagirdlərin mənəvi cəhətdən formalaşdırılmasına, xalqını, vətənini sevərək milli adət-ənənələrinə uyğun şəkildə şərəf və ləyaqətin yüksək səviyyədə təşkil edilməsinə yol cızılmış olsun.

Təhsilalanlara keçirilən tədbirlərin mahiyyəti başa salınmalı, onların qazanmış olduqları biliklər əqidəyə çevrilməli və vətəndaşlıq hissləri formalaşdırılmalıdır. Dərsdənkənar işlər və məktəbdənkənar tədbirlər şagirdlərin tədris işi ilə sıx əlaqələndirilməlidir. Bu məqsədlə şagird şəxsiyyətinin formalaşdırılması yolları və imkanları hərtərəfli öyrənilməli, o cəmiyyət üçün faydalı vətəndaş kimi yetişdirməlidir. Şəxsiyyətin əxlaqi keyfiyyətləri, intellektual, inkişaf as-

pektləri formalaşdırılmalı, elm, mədəniyyət, təhsil sahəsində dəyərlərə yiyələndirilməlidir.

Dərsdənkənar işin təşkil edilməsində bizim əsas vəzifəmiz tarixi keçmişimizdəki uğur və nailiyyətlərimizi şagirdlərə öyrədib mənimsətməklə onlarda milli qürur, milli iftixar, milli-mənəvi dəyərlərimizə hörmət hissi formalaşdırmaqdır. Həmin tədbirlər keçirilərkən şagirdlərin maraq və arzuları əsas götürülməlidir. Onların sosial tələbləri nəzərə alınmalı, imkan və qabiliyyətləri inkişaf etdirilməlidir. Şagirdlərdə idrak fəaliyyəti təşkil olunması üçün onlarda şəxsiyyətin hüquq və vəzifələrinə uyğun olaraq fərdi və ictimai şüur inkişaf etdirilməlidir. Dərsdənkənar tədbirlərin keçirilməsində şəxsiyyətin mühüm funksiyalarından biri olan ünsiyyətin inkişafına xüsusi diqqət yetirilməlidir. Eləcə də Qarabağ müharibəsinin qəhrəmanlarının döyüş yollarını əks etdirən hərbi vətənpərvərlik tərbiyəsi mövzularına geniş yer verilməlidir.

Sovet dövründə də müəllimlər tarix dərnəklərinin, tarixi muzeylərin yaradılması, sinifdənxaric oxunun, olimpiada, ekskursiya və s. kimi tədbirlərin nəticəsində mühüm təcrübə qazanmışlar. O dövrdə də dərsdənkənar işin əsas məqsəd və xüsusiyyətləri müəyyən olunmuşdur. Şagirdlərin tədris olunan fənnə idraki marağının artırılması, axtarış və tədqiqat bacarıqlarının formalaşmasına imkan yaradılmışdır. Bu fikri vurğulamaqda məqsədimiz ondan ibarətdir ki, cəmiyyətin siyasi və iqtisadi əsasları dəyişdiyi üçün yəni, bazis dəyişdiyi kimi üstqurumda dəyişmişdir. Dərslərin, dərsdənkənar və məktəbdənkənar tədbirlərin əsas məqsədi və vəzifəsi müstəqil Azərbaycanımızın müstəqilliyinə və möhkəmləndirilməsinə xidmət etməlidir.

Respublikamızın müxtəlif şəhərləri və rayonlarımızda Təhsil Nazirliyi nəzdində olan, fəaliyyətini şagirdlərə həsr edən 25.092 məktəbdənkənar tərbiyə müəssisələri fəaliyyət göstərir. Bu müəssisələr şagirdlərin təlimi və tərbiyəsi üçün müxtəlif istiqamətli tədbirlər həyata keçirirlər. Əldə edilən nailiyyətləri müsbət göstəricisi kimi qiymətləndirmək olar. Qeyd etməyi lazım bilirik ki, dərsdənkənar tədbirlərin əhəmiyyəti Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28.06.2016-cı il tarixli, 436 nömrəli əmrinə 9 nömrəli əlavə Tədris planına dair qeydlərində yazılmışdır: Dərsdənkənar məşğələlər meyl və maraqları nəzərə alınmaqla şagirdlərin ümumi dünyagörüşünün inkişafına, şəxsiyyətin formalaşdıran həyati bacarıqlara daha dərindən yiyələnmələrinə, ayrı-ayrı sahələr üzrə məlumatlarının genişlənməsinə yönəldilir (5).

**Problemin aktuallığı.** Ümumtəhsil məktəblərində tarixdən dərsdənkənar işlərin təşkilinin didaktik və tərbiyəvi əhəmiyyətini nəzərə alaraq onun mahiyyətinin araşdırılmasına ciddi ehtiyac var.

**Problemin elmi yeniliyi.** Ümumtəhsil məktəblərində tarixdən dərsdənkənar işlərin təşkilinin mahiyyətinin öyrənilməsindən ibarətdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə əldə olunmuş elmi nəticələrdən metodik vəsaitlərin hazırlanmasında, eləcə də ümumtəhsil məktəblərinin tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə bilərlər.

**Nəticə** olaraq deyə bilərik ki, dərsdənkənar işlərin səmərəli təşkilinə nail olmaq üçün didaktikanın və tərbiyə nəzəriyyəsinin qanun və qanunauyğunları nəzərə alınmalıdır. Dərsdənkənar işlər planauyğun və fasiləsiz təşkil olunmalıdır. Dərsdənkənar və məktəbdənkənar işlər tarix dərsləri ilə əlaqəli şəkildə aparılmalıdır.

**Ədəbiyyat:**

1. Ежова ,С.А. Лебедева И.М., Друкова А.В. Методика преподавания истории в средней щколе / С.А.Ежова, И.М. Лебедева, А.В. Друкова. -Москва, 1986. -с. 252.
2. Əmirov, M.M. Tarix üzrə dərsdənkənar iş (metodik vəsait) / M.M. Əmirov. - Bakı, 2014. - s. 5-6-7.
3. Əsgərova İ. Tarixdən sinifdənxaric məşğələlərdə şagirdlərin tədqiqatçılıq fəaliyyətinin inkişaf etdirilməsi //- Bakı: ARTPİ-nin Elmi əsərləri, -2011. № 3, -s.15-19.
4. Терехов М.М. Хрестоматия внеклассной работе / М.М. Терехов. -Москва: Просвещение, -2008.- стр.9-11.
5. http://edu.gov.az/upload/file/emre-elave/2016/436/436-saylı-emre-elave09.pdf

**E-mail:** nahidaasadovaa@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **M.M. Əmirov,**
*t.ü.elm.dok., dos.* **S.M. Seyidova**

**Redaksiyaya daxil olub:** 23.04.2021